

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

24 aprel 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 15 (3727)

# Münasibətlərdə yeni mərhələ

## Strateji tərəfdaşlıq qlobal əməkdaşlığa çevrilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Çin Xalq Respublikasına dövlət səfərinə gedib. Səfərin növbəti günü dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü olub.**



Azərbaycan Prezidenti İlham Əliyev Çinlə əlaqələrin inkişafına xüsusi diqqət ayırır. 2003-cü ildən sonra dövlətimizin başçısı bir neçə dəfə Çinə rəsmi səfər edib. 2015-ci ilin dekabrında həyata keçirilən səfər zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu" imzalanıb. Bu sənəd ölkələrimizin əməkdaşlığında mühüm önəm daşıyır. Son illər ərzində Azərbaycan və Çin arasındakı əlaqələrdə xüsusi canlanma yaşanır. 2022-ci ilin sentyabrında, Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə keçirilən Sammiti zamanı Azərbaycan Prezidenti İlham Əliyev ilə Çin Sədri Si Cinpin arasında keçirilən görüşdə iki ölkə arasındakı münasibətlərin gələcək inkişaf istiqamətləri müəyyənləşdirilib. 2023-cü ilin əvvəlindən isə yüksəksəviyyəli ikitərəfli mübadilələrin yeni dalğası başlayıb, qarşılıqlı səfərlər davam edib.

Dövlətimizin başçısının Çinə budəfəki dövlət səfəri iki ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi işinə xidmət edəcək. Aprelin 23-də Pekində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" bu istiqamətdə yeni səhifə açacaq.

Hazırda ölkələrimiz arasındakı ticarət dövriyyəsində də müsbət dinamika müşahidə edilir. Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Beləliklə, Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib. Azərbaycan ilə Çin arasındakı iqtisadi əlaqələrin genişlənməsi, həmçinin beynəlxalq təşkilatlarda da öz əksini tapıb. Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsindəki birgə əməkdaşlıq, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının fəaliyyəti, Asiya İnfrastruktur İnvestisiya Bankı ilə həyata keçirilən birgə layihələr və Azərbaycanın "Kəmər və yol" təşəbbüsünə qoşulması, bu əlaqələri daha da gücləndirib. Eyni zamanda, Şərq-Qərb və Orta Dəhliz layihələri çərçivəsindəki tərəfdaşlıqlar, nəqliyyat və ticarət əlaqələrinin inkişafına böyük töhfə verib. Pekində Azərbaycanın Ticarət Evinin açılması da bu əməkdaşlığın uğurlarını təzahür etdirir.

Ayrıca Azərbaycan ilə Çin arasında mədəni əlaqələr uzun illərdir möhkəm dostluq körpüsü qurur.

2008-ci il avqustun 10-da Pekində XXIX Yay Olimpiya Oyunları çərçivəsində "Azərbaycan günü", 2011-ci ilin mayında isə Çində Azərbaycan Mədəniyyəti Günləri keçirilib. Eyni zamanda, 2012-ci il dekabrın 10-14-də Azərbaycanda Çin Xalq Respublikasının Mədəniyyət Günləri təşkil olunub. Azərbaycanda fəaliyyət göstərən iki Konfutsi İnstitutu və Çin dilinə olan artan maraq, iki ölkə arasındakı mədəni əlaqələrin gücləndirilməsinə xidmət edir.

Azərbaycan ilə Çin arasında formalaşan strateji tərəfdaşlıq münasibətləri təkcə ikitərəfli əməkdaşlıq çərçivəsində deyil, həm də regional və qlobal səviyyədə sülhə, sabitliyə və inkişafına töhfə verən nümunəvi model kimi çıxış edir. Tarixi İpək yolunun yeni nəfəs aldığı dövrdə bu əməkdaşlıq gələcək nəsillər üçün dayanıqlı tərəfdaşlıq və qarşılıqlı fayda prinsipinə əsaslanan uğurlu bir yol xəritəsidir.

# Prezidentin müsahibəsi

## Çinin layihəsini dəstəkləyirik

Azərbaycan Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş "Kəmər və yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biridir.

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Çinin Sinxua agentliyinə məxsusi müsahibəsində söyləyib.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan bu layihənin reallaşmasına istər öz ərazisində, istərsə də onun hüdudlarından kənarda Çindən sonra daha çox investisiyalar qoyan ikinci ölkədir. "Bu layihə təkcə nəqliyyat əlaqəsini təmin etmir, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir", - Prezident deyib.

# Gələcəyin şəhəri...

## Turizm imkanlarımız artacaq

Aprelin 18-də Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Bakıda "Sea Breeze" istirahət mərkəzinin ərazisində həyata keçirilən və qarşıdakı dövrdə planlaşdırılan layihələrlə tanış olublar.

Bakının mərkəzindən cəmi 30 dəqiqəlik məsafədə yerləşən "Sea Breeze" 500 hektar ərazini əhatə edir. Burada 1,5 milyon kvadratmetrdən çox yaşayış və kommersiya daşınmaz əmlak layihəsi həyata keçirilib və istifadəyə verilib. Rekreasiya zonaları, parklar və çimərliklər üçün 150 hektardan çox ərazi ayrılıb. 2028-ci ilədək burada daha 700 binanın tikilməsi, ümumilikdə 50 hektar sahədə aypara şəklində nadir süni yarımadanın yaradılması nəzərdə tutulub.

# Səmərəli görüş

## Siyasi əlaqələr inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Sloveniya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri Tanya Fayonu qəbul edib. Görüşdə ölkəmizin enerji sahəsində Balkan regionu, o cümlədən Sloveniya ilə əməkdaşlığının inkişafına toxunulub və bu sahədə perspektivlərə dair fikir mübadiləsi aparılıb. Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti də qeyd edilib.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev aprelin 21-də 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev aprelin 21-də Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 noyabr 2023-cü il tarixli Fərmanında dəyişiklik edib. Dövlət başçısı bu barədə aprelin 19-da Fərman imzalayıb.
- "III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Prezidentinin 10 iyul 2024-cü il tarixli Sərəncamında dəyişiklik edilib. Dövlət başçısı İlham Əliyev bununla bağlı aprelin 16-da Sərəncam imzalayıb.

# Yollarımız abad, həyatımız firavan

## Müasir yol infrastrukturu ölkəmizin ən mühüm nailiyyətlərindən biridir

Adətən nəqliyyat mərkəzləri statusuna sahiblənən ölkələrin açıq dənizə, okeana çıxışı olur. Azərbaycan isə dənizə çıxışı olmayan ölkə kimi nəqliyyat qovşağına çevrilməyi bacarıb. Bu Prezident İlham Əliyevin hakimiyyətdə olduğu dövrdə həyata keçirdiyi inkişaf konsepsiyasının uğurudur. Məhz onun rəhbərliyi ilə Azərbaycanın yol infrastrukturu sahəsində böyük irəliləyişlər əldə edilib. Bu gün ölkənin yol şəbəkəsi yalnız fiziki infrastrukturla məhdudlaşmır, eyni zamanda iqtisadiyyatın inkişafına, beynəlxalq əlaqələrin möhkəmlənməsinə və əhalinin sosial rifahına müsbət təsir göstərir. Yollar ölkənin müxtəlif bölgələrini birləşdirir, iqtisadiyyatın inkişafını sürətləndirir, beynəlxalq əlaqələri möhkəmləndir.Sözsüz ki, respublikamızın ən böyük inkişaf göstəricilərindən və mühüm nailiyyətlərindən biri, modern və ən qabaqcıl standartlara cavab verən yol infrastrukturunun



formalaşdırılmasıdır.

Prezident İlham Əliyevin hakimiyyətdə oduğu illər ərzində yol təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş proqramlar çərçivəsində aparılan islahatlar nəticəsində Azərbaycan yol infrastrukturunun keyfiyyəti reytinqində MDB dövlətləri arasında 1-ci yerdədir, dünyanın 140 ölkəsi arasında isə 27-ci yerdə qərarlaşıb. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına əsasən, son 20 il ərzində Azərbaycanda 21 min kilometr avtomobil yolu tikilib və təmir edilib. 335 körpü və yolötürücüsü, 45 tunel, 163 yerüstü və yeraltı keçid inşa edilib. Yol təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş proqramlar çərçivəsində aparılan uğurlu islahatlar nəticəsində, işğaldan azad edilmiş ərazilərdə tikintisi başa çatmış avtomobil yolları da nəzərə alınmaqla, birinci texniki dərəcəli avtomobil yollarının uzunluğu 12 dəfə artıb. Hazırda birinci texniki dərəcəli avtomobil yollarının ümumi uzunluğu 2189 kilometr təşkil edir.

Bu, inkişaf, ticarət və daşınma sistemlərinə birbaşa təsir edir. Göründüyü kimi, Azərbaycan hökuməti nəqliyyat sektorunun inkişafına xüsusi önəm verir.

Elin gözü tərəzidir 2
Şəhid atasının məktubu 3
Peşəkarlıq nümunəsi 3
Vətən həsrətin bitən yeridi... 4

# Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2025-ci il aprel ayının 30-da Tovuz Rayon Polis Şöbəsinin inzibati binasında Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Qazax, Ağstafa şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Həmin gün daxili işlər naziri tərəfindən bölgə üzrə polis orqanlarında vakant vəzifələrdə xidmətə qəbulla əlaqədar sıra baxışı da keçiriləcəkdir.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 29.04.2025-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Diplomatların Qarabağ səfəri

Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin (səfirlər və müşavirlər) Qarabağa səfəri başa çatıb. Səfərin məqsədi diplomatik korpus nümayəndələrinin Xankəndi və Şuşa şəhərləri ilə tanışlıq olub. Bu çərçivədə onlar Qarabağ Universiteti, Xankəndi şəhərinin mərkəzi, Şuşa şəhərində Qarabağ küçəsi, Aşağı Gövhər Ağa məscidi, Şuşada birinci yaşayış kompleksi və İsa bulağını ziyarət ediblər.

### Xarici investisiya artıb

Bu ilin yanvar-mart aylarında Azərbaycanda əsas kapitala xarici mənbələrdən 950,1 milyon manat vəsait yönəldilib. Hesabat dövründə xarici investisiyaların 936,5 milyon manatı (98,7 %-i) Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Böyük Britaniya, Türkiyə, İsveçrə, Rusiya, ABŞ, Yaponiya, İran, Fransa, Macarıstan və Hindistan sərmayədarlarına məxsus olub.

### Veteranlara maddi yardım veriləcək

İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 2 500 manat birdəfəlik maddi yardım ödəniləcək. Yardımın ümumilikdə 2 469 şəxsə şamil olunacağı gözlənilir ki, onlardan 21-i İkinci Dünya müharibəsi iştirakçısıdır.

### Hərbçilər üçün sadələşdirilmiş təhqiqat

Müvafiq icra hakimiyyəti orqanına aid hərbi hissələrin və hərbi idarələrin ərazisində həmin orqanın hərbi qulluqçuları tərəfindən törədilmiş böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində təhqiqat aparılacaq. Bununla bağlı Cinayət-Prosessual, İnzibati Xətalar Məcəllələrində və "Məhkəmələr və hakimlər haqqında" qanunda dəyişiklik layihəsi Milli Məclisin plenar iclasında ilk oxunuşda müzakirəyə çıxarılıb.

### Təqaüdlər yenə artacaq

Bu il müavinət və təqaüdlərdə növbəti artımlar ediləbilər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, müxtəlif sahələrdə əməkhaqqı artımları, pensiyaların indeksləşdiriləreк artırılması, fevralın 1-dən isə minimum pensiyanın 14,3 faiz artımla 320 manata çatdırılması təmin edilib. Yeni sosial islahat paketi çərçivəsində müavinət və təqaüdlərə də bu il növbəti artımlar ediləcək.

### Xankəndiyə yeni yol çəkilir

Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunun tikintisi işləri sürətlə davam etdirilir. Başlanğıcını Bərdə-Ağdam avtomobil yolundan götürən yolun ümumi uzunluğu 33,6 kilometrdir. Hazırda layihə çərçivəsində torpaq işləri görülür. Həmin işlərlə yanaşı, 1 və 3 aşırımlı 5 körpünün inşası da sürətlə aparılır.

### Növbəti köç karvanı

Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə və Xocalı rayonunun Ballıca kəndinə yola salınan növbəti köç karvanı çatıb. Bu mərhələdə Sarıcalıya 34 ailə - 141 nəfər, Ballıcaya isə 21 ailə - 83 nəfər köçürülüb. Köçən ailələrə mənzillərin açarları təqdim edilib.

# Elin gözü tərəzidir

## Polisin fəaliyyəti təqdir olunur

**Ötən həftə ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçməsi bir sıra çətinliklərin meydana çıxmasına səbəb olmuşdu. Yağışların intensiv olduğu şəhər və rayonlarda polis əməkdaşları tərəfindən operativ tədbirlərin görülməsi yenə ictimaiyyətdə böyük məmnuniyyət hissi ilə qarşılandı.**

Sosial şəbəkə istifadəçiləri (jurnalistlər, bloqerlər, ictimai fəallar, siyasətçilər və s.) polis əməkdaşlarının bu fədakar xidmətini, çətin hava şəraitində insanlara köməyini, hətta sel təhlükəsi olan ərazilərdə heyvanların xilas edilməsini əks etdirən çoxsaylı foto və videolar paylaşdılar. Belə nümunəvi fəaliyyətə görə bir daha Daxili İşlər Nazirliyinin rəhbərliyinə və bütövlükdə Azərbaycan Polisinə ictimai şəkildə təşəkkür açıqlamaları paylaşıldı.










### "Polisimiz hər an yanımızdadır, hər yerdədir, xilaskardır"

Millət vəkili Azay Quliyev sosial media hesabında yazırdı ki, bu cür çətin anlarda vətəndaşın yanında olmaq, həyatını xilas etmək əsl qəhrəmanlıq nümunəsidir. Bugünkü hadisədə canı bahasına belə vətəndaşa yardım edən polis əməkdaşımıza dərin təşəkkürümü bildirirəm. Onun göstərdiyi cəsarət və peşəkarlıq bütün ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir.

"Modern" Media Qrupunun rəhbəri Elşad Eyvazlı da Bakıda və bölgələrdə polisin hər an insanların yanında olduğunu qeyd edərək, polislərin hər bir kəsə yaxın, doğma olmasına diqqət çəkib. O, "polis qardaşdır, əmioğludur, övladdır, atadır" fikrini irəli sürür.

Jurnalist Həbibə Abdulla polisin xilaskarlıq missiyasına diqqət çəkib: "Yağış yağır - polis, qar yağır - polis, yollar buz bağlayır - polis, qəza olur - polis, yanğın olur - polis, pandemiyada polis, müharibədə polis, hava çox istidir - polis, çox soyuqdur - polis... Yanan da polis, yaman da polis. Mən taa ölkədə fövqəladə vəziyyət və karantin dövründən bu yana polislərimizin fəaliyyətini heyranlıqla izləyirəm. Bir danılmaz fakt var: polisimiz hər an yanımızdadır, hər yerdədir, xilaskardır!"

### "Polislər sadəcə vəzifə borcu yox, insanlıq örnəyi göstərdilər"

Başqa bir jurnalist Bənövşə Həsənova həmin günlərdə polisin sadəcə vəzifə borcu yox, insanlıq örnəyi göstərdiklərini qeyd edir. O, yazır:"Yağış yağırdı… amma onlar dayanmırdılar.

Bu günün qəhrəmanları - bizim polislərimiz oldu. Soyuq, güclü yağış, islanan formalar, çətin hava şəraiti… onlar bütün bunlara məhəl qoymadan küçələrdə insanlara, uşaqlara yardım etdilər. Bu gün Azərbaycan polisinin fədakarlığı, ürəkdən xidmət anlayışı bir daha qürur yaşatdı". "Haqqı olana təşəkkür etməyi bacarmalıyıq" postunu paylaşan jurnalist Miri Məcidli qeyd edir ki, polis əməkdaşı həyatını təhlükəyə atıb vətəndaşı xilas edir. Bu həm də vəzifə borcunu tam olaraq yerinə yetirmək deməkdir. Onları həm cəmiyyət, həm də dövlət mükafatlandırmalıdır.

### "Bütün uşaqlar polisi sevir, çünki onlardan diqqət və qayğı görürlər"

Məltəm Anar da həmkarının fikrini bölüşüb. O yazır ki, həmin yağışlı günlərdə şəhərdə polis əməkdaşlarının vətəndaşlara, xüsusilə də məktəbli uşaqlara necə qayğı ilə yanaşdıqlarına dəfələrlə şahid olub. Onların sadə bir əl tutması, uşaqları təhlükəsiz şəkildə qarşıdan-qarşıya keçirməsi belə insanın içini isidir. "Amma bir məsələ var ki, çox zaman unudulur — ölkə daxilində baş verən hər bir çətin vəziyyətdə ilk olaraq önə çıxan da, yükü çiyinləyən də məhz onlardır. Biz yağışdan, küləkdən qaçaraq işə, dərsə, evə tələsirik...

Onlar isə həmin o yağışın, küləyin içində dayanıb, xalqa xidmət etməyə davam edirlər. Bəzən bir təşəkkür belə etmədən yanından keçdiyimiz bu insanlar səssiz qəhrəmanlardır", - deyə vurğulayır.

Azərbaycan Polisinin bir daha xalqın yanında olduğunu sübut etdiyini bildirən ictimai fəal Elçin Lənbaranski həmin gün polisin fəaliyyətindən bir vətəndaş kimi qürur duyduğunu yazıb sosial media hesabında.

Müğənni Nura Suri yol polislərinin xidmətinə diqqət çəkib: "Bu gün baxdığım bütün videolarda yalnız polislər əziyyət çəkiblər. Daxili İşlər Nazirliyi, təşəkkürlər".

***Rəşad Mehtiyev***
***polis baş serjantı***

# "Ailəvi qırğın silahı"na çevrilən bəla

## Azərbaycan polisi qətiyyətli mübarizəsini davam etdirir

**Son dövrlərdə bütün dünyada narkotacirlər dronlardan istifadəyə başlayıblar. Belə görünür ki, dron texnologiyasının inkişafı beynəlxalq narkotik alverçilərinin də işinə yarayıb. Bu yenilik onlara sərhədləri çox asanlıqla aşmaq imkanı verib. Biz bunu qonşu ölkələrdən Azərbaycana dronlarla narkotik keçirmə cəhdlərinin artması fonunda da aydın görürük.**

### "Uçan" narkotiklər

Sərhəddimizdə narkotik "uçurulması" məsələsində adı tez-tez hallanan qonşumuz bu qanunsuz tranziti durdurmağa, yumşaq desək, hələ ki həvəsli görünməsə də, Azərbaycanla əməkdaşlıq zərurəti hər ötən gün artır. Əlbəttə, bu "narkotik uçurma" üsulu qaçaqmalçıların metodlarından yalnız biridir. Onların ən müxtəlif və ən ağlasığmaz yollarla ölkəmizi də narkotik daşınmasında rahat güzargaha çevirmək cəhdlərinə qarşı hüquq mühafizə, daha dəqiq desək, daxili işlər orqanları prinsipial mübarizəsini davam etdirir. Ayrıca BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzi, POMPİDOU, GUAM və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq çərçivəsində informasiya və təcrübə mübadiləsi edilir. Nəticə olaraq deyə bilərik ki, narkotik yüklü dronların ələ keçirilməsi kimi faktlar mübarizənin qətiyyətindən xəbər verir.

### Narkotiklərlə mübarizədə dərin strategiya

Ölkə daxilindəki mübarizəyə gəlincə, əhalinin genofonduna böyük zərbə kimi qəbul edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı dərin bir strategiya işlənib hazırlandığı və icra edildiyi qeyd edilməlidir. Artıq mübarizə tədbirləri narkotik vasitələrin qanunsuz realizəsində iştirak edənlərin yalnız tutulması kimi klassik mahiyyət daşımır. Daxili İşlər Nazirliyi əsas diqqəti ölkədə narkotiklərə olan tələbatı azaltmaq, antinarkotik dünyagörüşünü daha da dərinləşdirmək, cəmiyyətimizdə narkotik vasitələrdən uzaq durma mövqeyini formalaşdırmaq məqsədilə əməliyyat-axtarış fəaliyyətinin profilaktik işlə uzlaşdırılmasına yönəldib.

Bu baxımdan aidiyyəti dövlət orqanları və ictimai təşkilatlarla sıx əlaqəli şəkildə əhali, xüsusən gənclər arasında maarifləndirmə və təbliğat işlərinin aparılmasına böyük önəm verilir. Ərazi polis orqanları təhsil müəssisələrində maarifləndirici görüşlər keçirməklə, narkotik vasitələrin insan orqanizminə zərərləri barədə ətraflı məlumat verir, yeniyetmələri və gənclərə narkotikdən istifadənin həm sağlamlıq, həm də ağır hüquqi nəticələri barədə xəbərdar edirlər.

Ötən il respublika üzrə əksəriyyətində rayon polis rəislərinin də iştirakı ilə min yüzdən artıq belə maarifləndirmə tədbiri təşkil olunaraq keçirilib. Həm Daxili İşlər Nazirliyinin, həm də Baş Narkotiklərlə Mübarizə İdarəsinin sosial şəbəkələrdəki rəsmi səhifələrində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı cəmiyyətlə birgə mübarizənin zəruri olduğunu əks etdirən, narkotiklərin insan sağlamlığına, mənəvi və fiziki inkişafına vurduğu zərərlər, törətdiyi təhlükələr barədə gündəlik məlumatlar paylaşılır. Bütün bunlar hazırda polisin mübarizəsinin "maarifləndirmə cəbhəsini" təşkil edir.

Etiraf edək ki, cəmiyyətdən də buna çox böyük ictimai dəstək var. Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun Nazirlikdə keçirilən Kollegiya iclaslarının birində narkotik vasitələrə qarşı vətəndaşları polislə həmrəyliyə səsləməsi geniş ictimai qarşılıq gördü. O vaxtdan media mənsubları, sosial media istifadəçiləri, bloqerlər polisin geniş maarifləndirmə hərəkatına qoşulublar. Təbii ki, bu, məqsədə çatana qədər davamlı olmalıdır.

### Üç ayda 1 ton yarımdan çox narkotik...

Şübhəsiz ki, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyat-axtarış fəaliyyəti polisin ən kəsərli, ən kəskin tədbiridir. Bu, həm cinayət əməlinə görə cəzanın labüdlüyü prinsipinin işlək olduğunu göstərir və bununla da qanunların aliliyi qorunur, həm də insanların sağlamlığına zərər vuran külli miqdarda narkotik vasitə aşkar edilərək qanunsuz dövriyyədən çıxarılır. DİN Baş Narkotiklərlə Mübarizə İdarəsindən aldığımız məlumata görə, ötən il daxili işlər orqanları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 8 min 678 cinayət faktı aşkarlanıb. Qanunsuz dövriyyədən 4 ton 714 kiloqram narkotik vasitə və 196 kiloqram psixotrop maddə çıxarılıb. Bu ilin ilk üç ayında isə aşkarlanmış 2 min 282 cinayət faktı üzrə 1 ton 662 kiloqram narkotik vasitə və 38 kiloqram psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb.

Baş İdarənin məlumatına görə, ötən il tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyasının və yabanı halda yayılmasının profilaktikası yönümündə də xüsusi əməliyyat planı üzrə tədbirlər keçirilib. Bunun nəticəsində ümumi çəkisi 2 ton 688 kiloqramdan çox kultivasiya edilmiş çətənə kolları aşkar edilərək götürülüb, 430 tondan artıq bu növ bitkilər müvafiq qaydada məhv edilib.

Hər qramı bir ölüm olan bu qədər külli miqdarda narkotik vasitənin dövriyyədən çıxarılması ilə neçə-neçə vətəndaşımızın həyatının, ailələrin məhv edilməsinin önünə keçildiyini özünüz təsəvvür edin...

# Şəhid atasının məktubu

## Bütövlüyünə qovuşan Vətən onların əmanətidir

**Şəhid atası yazmışdı. Hər misrası polad əridən marten sobası kimi isti, amma doğma olan bu məktubu oxuyanda hiss etdim ki, dərdin zirvəsindən boylanan bir atanın yazdığından çox deməyə sözü var.**

Söz haqqı, söz demək haqqı hər zaman onlarındır. Haqqımızda yazdığı fikirlərdə də haqlı idi. Zəfərlə taclanan Vətən müharibəsində daxili qoşunların əsgər və zabitlərinin göstərdiyi şücaətləri, arxa cəbhədə daxili işlər orqanları əməkdaşlarının sabitliyi qorumaq, təhlükəsizliyi təmin etmək kimi vəzifələrini peşəkarlıqla, məsuliyyətlə yerinə yetirdiklərini şəhid atası kiçik məktuba böyük ürəklə sığdırmağı bacarmışdı.

Onları təkcə əlamətdar günlərdə deyil, hər gün yad edən, qayğıları ilə maraqlanan Nəsimi Rayon Polis İdarəsinin rəhbərliyinə və şəxsi heyətinə təşəkkür etməyi də unutmamışdı Xüsusi Təyinatlı Qüvvələr mənsubu şəhid kapitan Həmidağa Hüseynzadənin atası Bağı kişi.

Daxili İşlər Nazirliyinə ünvanlanan məktubla bağlı Nəsimi RPİ ilə əlaqə saxlayanda idarə rəisi polis polkovniki Vüqar Ağayevin: "O doğma ocağa bizim əməkdaşlarımızla birgə getsəniz daha münasib olar",- deməyi, düzü, marağıma səbəb oldu. Ziyarətə çevrilən şəhid evini doğma ocağı bilən həmkarıma deməyə başqa söz tapmadım.

Bələdçimiz şəxsi heyətlə iş üzrə rəis köməkçisi polis polkovnik-leytenantı Zaur Kərimov oldu…

Bizi şəhidimizin qardaşı Amin qarşıladı. Onun öz doğmasını, əzizini görürmüş kimi hər birimizlə, xüsusilə polis polkovnik-leytenantı Zaur Kərimovla görüşməsi, əslində, çox mətləblərdən xəbər verirdi. Daha doğrusu, bu istilik, bu səmimiyyət bu evə, ocağa doğma olanlara, onların dərdini öz dərdi, sevincini öz sevinci bilənlərə göstərilə bilərdi ancaq.

Şəhid atalarını kövrək baxışlarından, şəhid analarını isə oğul axtaran gözlərindən tanımaq olur. Bizi qəhrəmanımızın divara vurulmuş şəkli önündə bağrına basan Bağı kişi "Oğlum Həmidağadır",- deyib şəkilə doğ-





ru əlini uzatdı. Həmin an mənə elə gəldi ki, o əllərdən dünyanın ən ağır daşları asılıb, o əllər dil açıb ölümsüzlüyə qovuşan qəhrəmana "Polis qardaşların xatirələrinin boy verdiyi evimizə gəliblər",- demək istəyir. Şəklin yanında baş-başa verən qardaş bayraqlar sanki onlara saygı duruşunda hərbi salam verən zabitimizin ruhunu görüb daha əzəmətli dalğalanırdılar.

"Daxili İşlər Nazirliyinin əməkdaşları və hərbi qulluqçuları da Zəfərimizin memarlarındandır. Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də həm ön, həm də arxa cəbhədə onların göstərdiyi fədakarlıqları biz şəhid ailələri çox yüksək qiymətləndiririk. Bizim qanlı döyüşlərdə düşmən bağrı yaran övladlarımız bilirdilər ki, onların doğmaları, əzizləri, ailələri əmin əllərdədir. O 44 gündə, sözün əsl mənasında, Azərbaycan Polisi güvən yerinə çevrildi. Müharibədən keçən 5 il ərzində isə rayonumuzun polisləri bizi tək qoymadılar, bu gün də yanımızdadırlar".

Dəmir nizam-intizam, Vətən sevgisi ilə yanaşı, müqəddəs andın çətiri altında birləşən, dövlət tərbiyəsi görmüş oğulların həssaslığından, vətəndaşlara təhlükədən daha yaxın olmalarından, canlarını belə əsirgəməyib həyat qurtarmalarından çox yazmışıq, çox yazıblar. Bu sözləri də şəhid atasının dilindən ünvanımıza eşitmək çox qürurverici idi…

Hər an, hər söz xatirəyə çevrildiyi kimi, hər görüş də xatirəyə çevrilir. Bir məktubun sorağı ilə üz tutduğum doğma ocağın qapıları bu gün hər kəsin üzünə açıqdır.

İnanırıq ki, şəhidimizin ata yurduna bundan sonra təşrif buyuranlar Vətən sevgisinə bələnmiş bir ömrə şəhidlik edən şəkillərdə, geyimlərdə, əsgər çəkmələrində, bir sözlə, döyüşçüyə aid hər şeydə bir müqəddəsliyin, Vətənə sevginin nişanəsini görəcəklər.

Yaddaşlara yazılan, xatirəsi ehtiramla anılan şəhid kapitan Həmidağa Hüseynzadəni tanıtmaq üçün qısa ömrünün böyük akkordlarına yenidən nəzər salaq.

Şəhidimiz 13 avqust 1990-cı il Bakıda doğulub. 1997-2008-ci illərdə A.Şaiq adına 54 saylı tam orta məktəbdə oxuyub. Məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və 2012-ci ildə fərqlənmə ilə bitirib. 2013-cü ildən Ağcabədi və Ağdam rayonlarında xidmət edib. Elə həmin il Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 95 illiyi yubiley medalı ilə təltif olunub.

Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə 2014-cü ildən başlayıb. Əvvəlcə baş kəşfiyyatçı, qrup komandirinin müavini, daha sonra qrup komandiri vəzifəsində xidmət edib.

Türkiyədə və Gürcüstanda keçirilən təlimlərdə iştirak edib, sertifikatlar alıb. Aprel döyüşlərində göstərdiyi igidliyə görə möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən medalla təltif olunub.

O, rus, ingilis və erməni dillərini bilirdi. Düşmənlərin pusquya salınmasında dil bilgisi, savadı, qərarvermə bacarığı onun çox köməyinə çatmışdı. Torpaqlarımızı azad etmək, illərin qisasını almaq fürsəti verən Vətən müharibəsi ümumilikdə xalqımızın, xüsusilə Həmidağa kimi döyüşlərdə, mühüm tapşırıqlarda püxtələşən, təcrübə qazanan xüsusi təyinatlıların ən çətin sınağı idi.

Cəsur kəşfiyatçının müharibənin ilk günlərində Murovdağ silsiləsindəki "Canavar qulağı" adlandırılan postları düşməndən geri almaq üçün əsgərləri ilə birlikdə göstərdiyi böyük fədakarlıqlar bu gün də dillər əzbəridir.

Sentyabrın 28-də isə "xallı" (Aprel döyüşlərindən sonra düşmən onu belə adlandırırdı. Şəhidimizin çənəsində qara xalı vardı), Həmidağa düşmənin növbəti həmləsini dəf edərkən şəhidlik zirvəsinə ucalır. O, 2-ci Fəxri Xiyabanda torpağa tapşırılıb. Ölümündən sonra "Qarabağ ordeni", "Kəlbəcərin azad olunmasına görə", "İgidliyə görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub. Şəhidimizin Həmidə adlı övladı bizlərə yadigar qalıb.

*Hafiz Təmirov*
*polis polkovniki*

# Peşəkarlıq nümunəsi

## Etibar olunanı etibarlı şəkildə qoruyurlar

Daha bir evdən oğurluq edilməsinin qarşısı mühafizə polisləri tərəfindən alınıb. Belə ki, vətəndaş V.Əmiraslanova məxsus Abşeron rayonu, Məhəmmədi kəndi, Həsən Əliyev küçəsində yerləşən və xüsusi texniki



vasitələrlə qorunan həyət evindən axşam saatlarında Baş Mühafizə İdarəsinin Kompüterləşdirilmiş Mərkəzi Mühafizə Məntəqəsinə "həyəcan" siqnalı daxil olub. Sabunçu Rayon Mühafizə İdarəsinin əməkdaşları dərhal hadisə yerinə yollanıblar. Hadisə yerinə çatan polis serjantları Elvin Həsənov və Elçin Əslanov evə baxış keçirərkən plastik konstruksiyalı pəncərənin kənar müdaxilə nəticəsində şüşəsinin sındırıldığını aşkarlayıblar.

Ekstremal şəraitdə sərbəst qərar qəbul edən polis əməkdaşları evi nəzarətə götürdükdən sonra gözləmə mövqeyində duraraq içəridə kənar şəxsin olduğunu müəyyənləşdiriblər. Onlar əvvəlcə şübhəli şəxsi polisin qanuni tələbinə tabe olmağa çağırıblar. Lakin evin içində olan naməlum şəxs digər pəncərədən qaçmağa cəhd göstərib. Onun bu cəhdinin qarşısı polis əməkdaşları tərəfindən çevikliklə alınıb. Hadisə barədə dərhal Sabunçu RMİ-nin növbətçi hissəsinə, ərazi üzrə Sabunçu RPİ-nin 15-ci Polis Bölməsinə və mülkiyyətçiyə məlumat verilib.

Saxlanılan şəxsin üzərində evə girmək üçün istifadə etdiyi 1 ədəd burğac, 1ədəd dəmir parçası və ülgüc aşkar edilib.

Bölmədə aparılan araşdırma zamanı oğurluq etməyə cəhd göstərən şəxsin əvvəllər ARCM-nin 177.1, 177.2 maddələri ilə məhkum olunmuş Ə.Məmmədov olduğu müəyyən olunub.

Bu fakt fiziki və hüquqi şəxslərə məxsus bütün mülkiyyət formalarının mühafizəsinin etibarlı şəkildə, həmçinin yüksək peşəkarlıqla həyata keçirildiyinin bariz nümunəsi olmaqla yanaşı, həm də peşəkarlara, polisə etibarın, inamın və güvənin təzahürüdür.

# Əsrin cinayətləri müzakirə olunub

## Rəqəmsal yeniliklər birgə mübarizəyə dəstək verir

Rusiya DİN-in V.Y.Kikot adına Moskva Universitetində "İnformasiya-telekommunikasiya sahəsində törədilən cinayətlərə qarşı mübarizə" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransda Polis Akademiyasının DİO-da əməliyyat-axtarış fəaliyyəti kafedrasının rəisi, polis polkovniki Orxan Məmmədov onlayn formatda iştirak edib.

Konfrans çərçivəsində "İnformasiya infrastrukturuna ziyan: normativlərin və hüquq tətbiqi təcrübəsinin qlobal analizi", "Kvant hücumlarından maliyyə məlumatlarının qorunması: strategiyalar və ən yaxşı təcrübələr", "Cinayətkarlığa qarşı mübarizə üzrə informasiya sistemlərinin inkişafı və İKT cinayətlərinin istintaqında obyektiv təqsirləndirmə məsələləri", "Kriptovalyutalardan istifadə ilə törədilmiş cinayətlərin sübut edilməsi xüsusiyyətləri: istintaq və məhkəmə təcrübəsi", "Kredit-maliyyə sahəsində informasiya təhlükəsizliyinin təmin edilməsinin aktual məsələləri", "İKT vasitəsilə cinayətlərin törədilməsinin aktual üsulları" və sair mövzularda məruzələr dinlənilib.

# Bu gün biz, sabah onlar təbliğ edəcək

## "Açıq qapı"dan körpələr də keçdilər

DİN-in Polis Akademiyasının növbəti "Açıq qapı"sından Xətai rayonundakı "Dəniz" uşaq bağçasının körpələri və Sabunçu rayonundakı 307 nömrəli tam orta məktəbin şagirdləri keçiblər. Körpələr və şagirdlər Akademiyada yaradılmış təhsil mühiti, o cümlədən tədris korpusları, kriminalistik təlim şəhərciyi, mühazirə zalları, elektron kitabxana, "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası, təlim mərkəzi, auditoriyalar, kur-





sant yeməkxanası, qapalı atıcılıq tiri və idman şəhərciyi ilə tanış olublar.

Əməkdaşlar tərəfindən Polis Akademiyasının tarixi, kursantların maddi, sosial təminatları və Akademiyada təhsilin üstünlükləri barədə geniş məlumatlar verilib, həmçinin rəsmi saytda yerləşdirilmiş "Virtual Akademiya" platformasından istifadə edərək tədris müəssisəsi ilə tanış olmaq imkanı da onların diqqətinə çatdırılıb.

Qonaqlara Polis Akademiyası haqqında məlumatları özündə əks etdirən lifletlər paylanılıb, onları maraqlandıran suallar cavablandırılıb və xatirə şəkilləri çəkilib.

# Film çəkiləcək

## Ekran işində polisin qəhrəmanlığı da öz əksini tapacaq

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Uçuruma aparan yol!" adlı layihə icra ediləcək. İnsan Alverinə Qarşı Mübarizə Təşkilatının həyata keçirəcəyi layihənin əsas məqsədi hökumətin insan alverinə qarşı apardığı mübarizədə vətəndaş cəmiyyətinin rolunu artırmaqdan ibarətdir.

Təşkilatın sədri Ramiz Alıyev bildirib ki, layihə çərçivəsində 7 dəqiqəlik qısametrajlı film çəkiləcək. Daxili İşlər Nazirliyinin təşkilati dəstəyi ilə ərsəyə gələcək filmin Bakı və Sumqayıt şəhərlərində təqdimatı keçiriləcək. Eyni zamanda filmin yutub və digər sosial şəbəkələr üzrə geniş şəkildə yayımı reallaşdırılacaq. Çəkilən qısametrajlı film televizya kanallarına da təqdim olunacaq.

Təşkilatın bu səpkidəki filmləri insan alveri qurbanlarının acı talelərini göstərməklə bərabər, Azərbaycan polisinin işinə necə məsuliyyət və şərəflə yanaşdığını nümayiş etdirir.

"Dövlətinə sədaqətlə xidmət edən Azərbaycan polisi bütün dünya ölkələrində polislərə nümunə göstərilir. Polisin və digər hüquq mühafizə orqanlarının fəaliyyətinin nəticəsidir ki, ölkədə sabitlik hökm sürür." - deyən R.Alıyev gənclərin polis sisteminə marağının daha da artdığını vurğulayıb. O, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun polis sıralarına qoşulmaq istəyən gəncləri şəxsən seçməsinin gənclərdə ruh yüksəkliyi yaratdığını söyləyib.

# Həmkarımızın araşdırmaları

## Türk dünyasının ortaq ədəbiyyatına töhfə

DİN-in Polis Akademiyasının Dil hazırlığı kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru, polis baş leytenantı Aynur Səfərlinin bu günlərdə yeni kitabları işıq üzü görüb.

Müəllifin "Türkmən ədəbiyyatının bülbülü" adlı tədqiqat əsərində XVII-XVIII əsr türkmən ədə-




biyyatının görkəmli nümayəndəsi Nurməhəmməd Əndəlibin həyat və yaradıcılığı geniş elmi araşdırmaya cəlb edilib. Xalq şeiri üslubunda qələmə alınan əsərlərin türkmən ədəbiyyatının sonrakı dövrlərində də yazılı ədəbiyyat nümunələrinə təsirinə toxunan filoloq alim "Çağdaş türkmən ədəbiyyatı antologiyası"nda topladığı şeirlərdə, poemalarda, dastanlarda bunun aydın hiss olunduğunun izahını verir, milli kimliyin yaşamasında ənənələrin qorunmasının vacibliyinə diqqət çəkir. İnanırıq ki, həmkarımızın bu kitabları digər ali məktəb tələbələri ilə yanaşı, kursantlarımızın da diqqətini çəkəcək, türkmən bədii ruhunun sözə çevrilmiş ədəbi nümunələrini oxuyub, öyrənəcəklər.

# Vətən həsrətin bitən yeridi…

## Zaman gələcək ağbabalılar doğma yurda dönəcəklər

Tarixən Şərqi Anadolu ərazisi olan Ağbaba mahalı adını bu ərazidəki eyni adlı dağdan götürüb. Dəniz səviyyəsindən 1800-2200 metr yüksəklikdə yerləşən Ağbaba mahalı, qərbdən Ağbaba dağ silsiləsi, şimali-qərbdən Türkiyənin Çıldır bölgəsi, şimaldan Axılkələk, şərqdən isə Loru-Pəmbəklə qonşu olan Qayqulu eli ilə əhatə olunub. Ən qədim zamanlardan Ağbaba ərazisi türk tayfalarının ilkin məskunlaşdığı ərazilərdəndir. Tarixi mənbələrdə hələ eramızdan əvvəl III-II əsrlərdə xəzərlərin bir qolu olan Sirak tayfalarının Qafqaz dağlarını aşaraq Azərbaycana gəlmələri, Araz və Arpaçayı boyu yerləşmələri yazılır.

Tarixi sənədlərdə Ağbaba mahalının 1593-cü ildə Osmanlı İmperiyasının Tiflis əyalətinin Arpalı sancağının nahiyəsi olduğu göstərilir. 1877–1878-ci illərdə Qars paşalığı Çar Rusiyası tərəfindən işğal edildikdən sonra Ağbaba mahalı Tiflis quberniyasının Qars qəzasının Ağbaba nahiyyəsi şəklində Rusiyanın tərkibinə qatılıb.

Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra Qars müqaviləsinin şərtlərinə görə Ağbaba mahalının 594,75 kv verst ərazisinin 450 kv versti Ermənistana verildi. SSRİ dövründə 1930-cu ilə qədər Gümrü qəzasının Ağbaba nahiyyəsi adlanıb. 30-cu illərdə Ermənistan SSR ərazisində aparılan inzibati-ərazi bölgüsünə görə Ağbaba ərazisində Amasiya inzibati rayonu yaradılıb.

XX əsrin əvvəlində Ağbaba nahiyəsində 39 kənd olub ki, bunlardan da cəmi 2 kənddə - Qaraməmməd və Bəzirganda köçkün ermənilər yaşayıblar.

1915-1916-cı illərdə Türkiyədən köçüb gələn ermənilər Daşnaksütyun partiyasının təkidi ilə Ağbabanın Gümrüyə yaxın kəndlərinə tez-tez hücumlar edir, yerli əhalini bu torpaqlardan didərgin salırdılar. Erməni cəlladları imkan tapıb mahalı tərk edə bilməyən kimsəsiz qocaları, xəstələri və uşaqları quyulara atıb ağzını bağlayır, onları samanlıqlara doldurub üstlərinə neft tökərək yandırırdılar.



Qeyd edək ki, Rusiyada 1917- ci il fevral çevrilişindən sonra rusların Şərqi Anadolu cəbhəsində buraxıb getdikləri cəbhəxanaları ələ keçirən ermənilər Qars vilayətinin hər yerində olduğu kimi, Ağbabada da dinc əhaliyə qarşı dəhşətli qırğınlar törətmişdilər. Bu qırğınlar 1918-ci ilin martında türk qoşunlarının Ərzurumu azad etməsindən sonra daha da şiddətlənmiş, türk ordusunun önündən geri çəkilən erməni könüllü birlikləri müsəlman-türk kəndlərini yandıraraq əhalini qətlə yetirmişdilər. Qırğınlar türk qoşunlarının Gümrünü azad etməsinədək davam etmişdi. Türk ordusunun generalı Əhməd Hulki Saral 1919-cu ildə İstanbulda nəşr edilən "Erməni məsələsi" kitabında yazırdı ki, 1918-ci il mayın 1-də yüzə qədər erməni atlısı Şiştəpə və Düzkənd çevrəsində altmış uşaq, qadın və kişini qətlə yetirmişdi.

Ümumiyyətlə, Ermənistanda 30-cu illərdə 50 mindən artıq azərbaycanlı repressiyaya məruz qalmışdır. Bu aksiya icra edilən zaman heç bir müqavimətə rast gəlməyən Ermənistan rəhbərliyi 40-cı illərin sonu, 50-ci illərin əvvəllərində azərbaycanlıların növbəti deportasiyasına nail oldular. Sonralar xalqlar arasında milli zəmində baş verən qarşıdurmalar səngisə də erməni millətçiləri arzularına çatmaq üçün təşkilatlanmalarını davam etdirmişlər.

Əhalisinin 90 faizini azərbaycanlılar təşkil edən kəndlərin 12-də orta, 7-də səkkizillik məktəb, 5 kənd bağçası, 3 xəstəxana, 25 həkim məntəqəsi, bir neçə fabrik və zavodun filialı, 2 süd zavodu fəaliyyət göstərirdi.

1941-1945-ci illər müharibəsində rayonun azərbaycanlı əhalisindən 2000 nəfərdən çoxu cəbhədə vuruşmuş, onlardan 888 nəfəri həlak olmuşdur. Mövcud olduğu illər ərzində rayon partiya komitəsinin birinci katibləri azərbaycanlılar olmuşdur. Rayonda 1933-cü ildən Azərbaycan dilində çıxan "Maldarlıq cəbhəsi" sonrakı illərdə 3000 tirajla çıxan "Əmək" qəzeti adı ilə nəşr olunurdu. 1988-ci ilin sonlarına olan məlumata görə, Amasiyanın Xançallı, Oxçuoğlu, Güllübulaq, Çaxmaq, Mağaracıq, Qaraçanta, Daşkörpü, İbiş, Qonçalı, İlanlı, Düzkənd, Qaranamaz, Göllü, Təpəköy, Hozukənd, Qarabulaq, Ellərkənd, Bəndivan, Quzeykənd, Alakilsə, Çələb, Qara Məmməd, Güllücə, Balıqlı və s. kəndlərinin 21-də azərbaycanlılar, 5-də ermənilər, 1-də isə azərbaycanlılar və ermənilər qarışıq olmaqla ümumilikdə 18 min nəfər azərbaycanlı, 3 min nəfər erməni yaşayırdı.

Sonuncu deportasiyadan Azərbaycana pənah gətirən və dünyaya səpələnən ağbabalılar bu gün Vətən həsrəti ilə yaşayır, doğma yurdlara dönmək inamını itirməyiblər. Yeri gəlmişkən, I və II Qarabağ müharibəsində 100 nəfərdən çox amasiyalı şəhid olub, Mehdi Abbasov və Səxavət Məhərrəmov Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüblər.

*Ləman Babayeva*

# Bir sual, bir cavab

## Vətəndaş soruşur, polis cavab verir

Polisin, daxili işlər orqanlarının vəzifələri, fəaliyyət sferası barədə vətəndaşların məlumatlandırılması prioritetlərdəndir. Odur ki, Daxili İşlər Nazirliyinin sosial şəbəkə hesablarında, rəsmi internet səhifələrində mütəmadi olaraq verilən məlumatlar məhz buna xidmət edir. Vətəndaş günün istənilən saatında üzləşdiyi problemlə, onu narahat edən hər hansı bir məsələ ilə bağlı polisə etdiyi müraciətin həllinin mümkünlüyünə əmin olursa, bu, xidmətin və rəhbərliyin tələblərinin yerinə yetirilməsinin bariz nümunəsidir. DİN-in mia.gov.az saytı da vətəndaş müraciətlərinin ən çox ünvanlandığı resurslardandır. Diqqətçəkən məqam odur ki, "Polisə verilən suallar" bölməsində yer alan suallar, daha doğrusu, vətəndaşların polisə müraciətləri və onlara verilən cavablar da maarifləndirici xarakter daşıyır.

Necə deyərlər, vətəndaş soruşur, biz də cavablandırırıq.

**Sual: Böhtan xarakterli məlumat yaymaq cinayət hesab olunurmu?**

**Cavab: Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinə əsasən şəxsiyyətin şərəf və ləyaqəti dövlət tərəfindən qorunur, heç bir hal şəxsiyyətin şərəf və ləyaqətinin alçaldılmasına əsas verə bilməz.**

Mülki Məcəllənin 23.1. maddəsinə əsasən fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu ləkələyən və ya şəxsi və ailə həyatının sirrinə qəsd edən məlumatlar mediada yayılmışdırsa, həmin mediada da təkzib edilməlidir. Əgər göstərilən məlumatlar rəsmi sənədə daxil edilmişdirsə, həmin sənəd dəyişdirilməli və bu barədə marağı olan şəxslərə məlumat verilməlidir. Digər hallarda təkzib qaydasını məhkəmə müəyyənləşdirir.

Mediada hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş (yayımlanmış) fiziki şəxsin həmin mediada öz cavabının dərc edilməsi (yayımlanması) hüququ vardır. Şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların təkzibi ilə yanaşı, onların yayılması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.

Bundan başqa böhtan bir sıra zəruri tərkib əlamətləri mövcud olduqda ictimai təhlükəli hesab olunmaqla cinayətə çevrilir. Belə ki, Cinayət Məcəlləsinin 147.1. maddəsinə əsasən böhtan, yəni yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, mediada və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayma böyük ictimai təhlükə törətməyən cinayət olmaqla cəzanın yuxarı həddi kimi ya altı ayadək, ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma isə 3 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Həmçinin, internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə də cinayət sayılaraq Cinayət Məcəlləsinin 148-1 maddəsində əksini tapmışdır. Həmin maddədə "saxta istifadəçi adlar, profil və ya hesablar" dedikdə internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə istifadəçinin şəxsiyyətini eyniləşdirməyə imkan verməyən, yəni ad, soyad və ya ata adına dair yalan məlumat yerləşdirilmiş və ya belə məlumatlar gizlədilmiş, habelə digər şəxsə aid məlumatlardan onun razılığı olmadan istifadə edilməklə yaradılmış istifadəçi adlar, profil və ya hesablar başa düşülür. Bu növ şikayətlərin araşdırılması üç halın aydınlaşdırılmasını və onlara məcmu halında hüquqi qiymət verilməsini tələb edir: məlumatın vətəndaşların və təşkilatların şərəf və ləyaqətini ləkələməsi; həmin məlumatların doğru olmaması; bu məlumatların yayılması.

Polis orqanlarına bu tip şikayətlər kifayət qədər sayda daxil olsa da vətəndaşlara pozulmuş hüquqların mülki qaydada məhkəmədə iddia qaldırmaqla bərpa olunması hüquqları izah olunur. Lakin məhkəməyədək araşdırma zamanı toplanmış materiallarda cinayət tərkibinin əlamətləri müəyyən olunarsa Cinayət Məcəlləsinin 147-ci maddəsi ilə bağlı xüsusi ittiham qaydasında birinci instansiya məhkəməsinə müraciət etmək tövsiyə olunur, həmin Məcəllənin 148-1 maddəsində isə cinayət-prosessual qanunvericiliyinə əsasən materiallar aidiyyət üzrə prokurorluq orqanlarına göndərilir.

Bununla yanaşı, internet məkanı da bir növ ictimai yer sayıldığından bir sıra hallarda ictimai qaydanın pozulması, qanunsuz fəaliyyətin təbliği, ictimai təhlükəsizliyə qəsd kimi qiymətləndirilməklə təqsirkar şəxslər İnzibati Xətalar Məcəlləsinin 510-cu maddəsi ilə inzibati məsuliyyətə cəlb olunurlar.

## MÜKAFATLI SUAL RUBRİKASI

Onun nəsri milli düşüncə və məfkurə nəsridir. Ən kiçik hekayələrində mənsub olduğu millətin tarixi ilə qürur duyur, sabahına inamını və narahatlığını dönə-dönə vurğulayırdı. Bu, onun vətəndaş yanğısından irəli gəlirdi.

1941-1945-ci illər müharibəsində qeydə aldığı cəbhə gündəlikləri sonralar böyük əsərlərinin yazılmasına təkan vermişdi. Faşist Almaniyasının əldə etmək istədiyi "Rusiya ərazisi"nin qədim türklərin yaşayış məskənləri olduğunu o, yaxşı bilirdi.

Romanlarından birini tənqidçilər xarakterlər romanı kimi qeyd edirlər. Sovet ideologiyasını hədəfə alan, ideoloji təsiri işıq üzü görəndən sonra müzakirələrə səbəb olan bu əsərə görə yazıçının başı çox bəlalar çəkmişdi. Sağlığında sapı özümüzdən olan baltalardan da az zərbə görməmişdi.

**Söhbət kimdən gedir?**

*"WhatsApp": +994 55-875-16-39*

# Güclülər yarışdılar

## Gərgin məşqlər, çəkilən zəhmət qələbə ilə nəticələnir

Bu günlərdə DİN-in İdman Cəmiyyətində sambo üzrə Daxili İşlər Nazirliyinin birinciliyi keçirilib. Yarışda müxtəlif çəki dərəcələrində 12 komandanı təmsil edən 60 idmançı gücünü sınayıb.

Dövlət himni səsləndirildikdən sonra yarışa start verilib. İdmançılara uğur arzulayan DİN İdman Cəmiyyətinin sədri polis polkovnik-leytenantı Mövlud Mirəliyev ölkəmizdə gənclərə, idmana göstərilən dövlət qayğısından söz açıb, idmançılarımızın beynəlxalq yarışlarda əldə etdikləri uğurlarla dünyanın ən güclüləri sırasında yer aldıqlarını diqqətə çatdırıb.



Qeyd olunub ki, idman ənənələrinin qorunmasına, daha güclü idmançıların yetişməsinə DİN Cəmiyyəti də öz töhfəsini verir, polis idmançılarımız dünya idman tarixinə adlarını qızıl hərflərlə yazdırırlar.

Digər çıxış edənlər gənclərimizi zərərli vərdişlərdən qorumaq üçün idmanla məşğul olmalarının vacibliyini vurğulayıblar.

Sonra yarışa start verilib. Qələbə uğrunda yüksək fiziki hazırlıq, çeviklik göstərən Əlahiddə Çevik Polis Alayının komandası birinci, Polis Akademiyasının komandası ikinci, DİN Mərkəzi Aparatınının komandası isə üçüncü olub.

Qaliblərə diplomlar və qiymətli hədiyyələr verilib.

# İlk robot polis

## Tailandda robot-polis xidmətə başlayıb

Tailand polisi bir neçə gün əvvəl sosial media hesabında sıralarına ən yeni "əməkdaşlarını" xidmətə qəbul etdiklərini bildirib.

Dünyanın ilk süni intellektlə təmin edilmiş robot polisi "Kiborq 1.0" Taylandın Nakhon Pathom əyalətində keçirilən festival zamanı işə salınıb. O, kütləvi tədbirlər zamanı təhlükəsizliyə və ərazidə kriminal vəziyyətə nəzarət etmək üçün yaradılıb.



İlk baxışdan Kiborq eyni rəsmi forma geyinən digər polislərə oxşayır. Lakin o, digər polislərdən xeyli hündürdür. Süni intellektlə işləyən zabitin adı polis polkovniki Nakhonpatom Plod Phaidir. Bu, "Nakhonpatom təhlükəsizdir" mənasını verir.

Kiborq polis şöbəsində idarəetmə mərkəzi ilə birbaşa əlaqədə olur. Gözləri, yəni süni intellektli kameraları 360 dərəcə fırlanır. Robot polis hətta dron görüntülərini təhlil edərək baş verən hadisəni nəzarətə götürə bilir.

Bundan başqa, risk qrupuna daxil olan şəxsləri aşkarlaya bilən qabaqcıl üz tanıma texnologiyasına malikdir. Yoldan keçənləri üz cizgilərinə, geyimlərinə, bədən tiplərinə və cinsinə görə müəyyən edə bilir. Kiborq həmçinin şübhəli şəxsin üzərində bıçaq və yaxud kəsici-deşici alət olub-olmadığını aşkar edə, ona zərər vermək istəyən cinayətkara fiziki güc tətbiq edə bilmək qabiliyyətinə malikdir.

Bununla da heç bir şübhəli robot-polisin nəzarətindən qaça bilməyəcək.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik